# “Hüseyn Arifin lətifələri”

Azərbaycanın bir çox bölgələrində, xüsusilə də Gəncəbasar tərəflərdə ataya, hörmətli ağsaqqallara “qağa” deyə müraciət edirlər. Söz-sənət adamları arasında uzun illər bu şəriksiz müraciət unudulmaz şairimiz Hüseyn Arifə olub. İndinin özündə də Hüseyn Arifdən söz düşəndə “qağa ilə başımıza belə bir əhvalat gəlmişdi” ifadələrini tez-tez eşidirik. Onu hörmət və ehtiramla yada salırıq.

Hüseyn Arif- bizim möhtərəm “qağamız” sağlığında yetərincə sevilirdi, xalq məhəbbəti qazanmışdı, canlı klassik idi.

Zaman keçdikcə sevgisinin üstünə sevgi, şöhrətinin üstünə şöhrət gəlir və beləcə, böyük şair illərin qanadında nağıllaşır, əfsanələşir. Hüseyn Arifdən sonra gələn nəsil onun haqqında sənətkarların öz kitablarından, yaşlı insanların söhbətlərindən, bir də haqqında yazılanlardan dürlü-dürlü bilgi alırlar...

Hər bir xalq öz sənətkarları ilə fəxr etdiyi kimi, onların həyatı ilə bağlı ibrətamiz hadisələri, əhvalatları, qəribəlikləri də bilmək istəyir. İngilislərdə Şekspir, Bayron, fransızlarda Volter, Balzak, Düma, İspanlarda Servantes, Lope de Veqa, farslarda Firdovsi, Sədi, Hafiz, şotlandlarda Robert Berns, italyanlarda Boqqaçio, ruslarda Puşkin, Lermontov, Krılov, Lev Tolstoy, hindlilərdə Taqor, gürcülərdə İ.Çavçavadze, Q.Tabidze, bizim özümüzdə M.P.Vaqif, C.Məmmədquluzadə, Üzeyir Hacıbəyov, M.S.Ordubadi, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun haqqında maraqlı, mənalı, məzmunlu, lətifələr yaranmış, müdrikliyi, hazırcavablığı bildirən atmacaların bir çoxunda onlara isnad edilmişdir.

Böyük xalq sevgisi ilə dolu kəlamların əksəriyyəti söz ustadlarının başına gəlmiş əhvalatlarla bağlıdır. Həmin lətifə, atmaca və rəvayətlərdə sənətkarın hadisələrə münasibəti qısa, bədii ümumiləşdirmələrlə verilir.

Diqqət versək görərik ki, üzü qədimlərdən bəri bizim yazıçı və şairlərimizin də həyatı ilə bağlı lətifələr, atmacalar, rəvayətlər sayagəlməzdir.

Hüseyn Arif Azərbaycan ellərində gəzdiyi, keçdiyi mehmanı olduğu evlərin qapısını ərklə, ürəklə açırdı. Onu hamı öz dostu, doğması bilirdi.

Tanrı ona böyük istedad payı vermişdir. O da bununla ellər sevgisi qazanmış, şeirləri dildən-dilə düşmüşdü.

Xalq şairi Hüseyn Arif zaman keçdikcə nağıllaşır, əfsanələşir, ölməzlik, əbədilik pillələrilə gələcək qərinələrə, əsrlərə addımlayır.

2008-ci ildə Hüseyn Arifin qızı Zöhrə Hüseynzadə “Dünya durduqca” adlı irihəcmli bir kitab nəşr etdirmişdi. Burada ölməz sənətkar haqqında publisistik düşüncələr,xatirələr, məqalələr, şeirlər yer almışdı. Yüz nəfərə yaxın müəllifin yazılarını yenidən oxuyarkən istər-istəməz ürəklərdə bir istək qaldırdı: “Niyə şairin ayrı-ayrı sənətkarlarla, tanınmış ziyalılarla və sadə oxucularla bağlı dildə-ağızda gəzən əhvalatları, lətifələri toplanıb kitab halında nəşr edilməsin?”

Hüseyn Arifin maraqla qarşılanan dialoq və zarafatlarından biri akademik, millət

vəkili Nizami Cəfərovla yaşanıb. H.Arifin "Azərnəşr"in Bədii Ədəbiyyat Redaksiyasında böyük redaktor kimi çalışdığı bir dövrdə Nizami Cəfərov onun qəbuluna gəlir. Həmin vaxt xalq şairi Nəriman Həsənzadə də Hüseyn Arifin yanında olub və Nizami Cəfərovu Hüseyn Arifə təqdim edib:

-Bu oğlan da qazaxlıdı
-Nə yaxşı gəlib? Budamı şeir yazır?- H.Arif soruşur.
-N.Həsənzadə dillənir:
-Yox, qağa tənqidçidi.
-Mənim tənqiddən və tənqidçidən heç xoşum gəlmir - deyib N.Həsənzadə ilə başqa məsələdən söhbət açırlar.

Bu cavabdan sonra Nizami Cəfərov kənarda dayanıb, onların söhbətlərinə qulaq asır. Həmin vaxt H.Arifin "Xalq şairi" fəxri adına layiq görülməsi ilə bağlı ciddi gözləntisi var imiş. Və bunu da N.Cəfərov yaxşı sezə bilibmiş. Söhbət əsnasında N.Cəfərov deyir ki, ay Hüseyn qağa "Xalq şairi" fəxri adına ən layiqli namizəd sizsiniz. Bu sözləri eşidən H.Arif bir neçə dəqiqə əvvəl bəyənmədiyi tənqidçi haqqında görün nə deyir:

"Sən bu ölkənin ən böyük tənqidçisisən!"

***

Hüseyn Arif "Azərnəşr"də şöbə müdiri işləyirdi, Qılman İlkin də direktor. Bir gün Mərkəzi Komitədən Qılman İlkinə zəng vururlar ki, Hüseyni təcili "yuxarı" göndər, lazımdır. Qılman müəllim gülə-gülə onlara deyir:

- Əgər onu tapsanız, yanıma göndərin, mənə də lazımdır.

- Necə, bu nə deməkdir? Sənin nəyinə lazımdır?

- İşdən çıxartmaq üçün əmr vermək istəyirəm, üç aydı tapa bilmirəm.

***

Vaqif Səmədoğlu deyir:

"Məndə bloknotlar var. Hər dəfə Hüseyn Ariflə səfərə çıxanda, bir yerə gedəndə maraqlı sərgüzəştlər baş verərdisə, yaxud o zarafat edərdisə, hamısını bloknota yazardım. Biz onunla çox səfərdə olmuşuq. Xeyli maraqlı qeydlərim var. Düzdü, İsmayıl Şıxlı da onun haqqında yazdı. Yəni lətifələrini bir kitaba yığdı. Amma Hüseyn Arifin öz dili yox idi orda. Mən isə olduğu kimi, necə varsa, o cür də yazacağam. Elə bir-iki xatirə nəql edim sizə.

Bir gün söhbət edə-edə nəşriyyata gəldik. Hüseyn Arif də qolumdan tutub danışırdı. Qolumdan bərk yapışıb danışır, yanımızdan keçən camaat da maraqla bizə baxırdı. Birdən biri soruşdu.

- Hüseyn müəllim, bunu belə hara aparırsan?

- Heş hara. İki aydı bizdə işliyif maaş alır, amma idarəni tanımır. Gətirmişəm, iş yerini ona tanıdım.

***

Hüseyn Arif bir kəndə qonaq gedir. Ev sahibi dərhal ayağa durur. Kök bir toğlunu yıxıb bıçağı boğazına çəkmək istəyir.

Hüseyn qışqırır:

-Kəsmə. O qədər əti kim yeyəcək, hayıf eləmə.Bircə budu bəsdi.

***

Hüseyn Arif bir gün Vaqif Səmədoğlunu özü ilə Zaqatala qoruqlarına, dağ kəli ovuna aparır. Axşamdan tüfənkləri hazırlayır, ertədən yorğana bürünüb yatırlar ki, obaşdan oyansınlar. Vaqifin gözünə yuxu getmir. Hüseynin şeirlərini, dağ kəlləri, qayalıqlarda dolaşan təkələr haqqında söylədiklərini yadına salır və maraq içində qovrulur ki, səhər tez açılsın və ovçularla birlikdə dağlara qalxsınlar. İşıqlaşana yaxın Vaqif şairi dümsükləyib oyadır.

-Ay qağa, ovçular deyəsən hazırlaşırlar, vaxtdı. Hüseyn yuxulu-yuxulu dillənir:

-Hara, nə vaxtdı?

-Bə, ova getmirikmi, dağ kəli ovlamağa?

-Ə, ağlını başına yığ, nə ov, nə kəl? Adam sıldırım qayaların zirvəsində dayanan təkələri, sürüləri, onlara atılan gülləri, sıldırımdan-sıldırıma tullanan buynuzlu dağ kəllərini təsəvvüründə, təxəyyülündə canlandırar. Sənin dağda-daşda nə işin var, mafrax şəhər uşağısan, qayadan dığırlanıb ölərsən, məni də xataya salarsan, yıxıl yat. Ovçular geri qayıdanda biz də onlara qarışarıq.

***

Bir gün Hüseyn Arif Rəfiq Zəka ilə birlikdə Ağstafada, şəhər qəbirsanlığında qədim başdaşlarına, oradakı yazı və şəkillərə baxırlarmış. Xeyli gəzdikdən sonra Hüseyn Arif kövrəlir və Rəfiqin qolundan tutur.

-Rəfiq, gəl sən də özünə bir yer seç. Kənddir, eldir, obadır yaxşı olar.

Rəfiq sakitcə cavab verir:

-Qağa, sən buralısan. Allah eləməsin, başına bir iş gəlsə, qohumlar yığışıb gətirə bilərlər. Bəs mən ölsəm, bura kim gətirər?

-Özüm, özüm gətirərəm.

***

Hüseyn "Azərnəşr"də şöbə müdiri işləyirdi, Qılman İlkin direktor. Bir gün Mərkəzi Komitədən Qılman İlkinə zəng vururlar ki, Hüseyni təcili yuxarı göndər, lazımdır. Qılman müəllim gülə-gülə onlara deyir:

-Əgər onu tapsanız, yanıma göndərin, mənə də lazımdır.

-Necə, bu nə deməkdir? Sənin nəyinə lazımdır?

-İşdən çıxartmaq üçün əmr vermək istəyirəm,üç aydı tapa bilmirəm.

***

Yazıçılar İttifaqında Rəyasət heyətinin iclası vardı. Yaradıcılıq ezamiyyəti məsələlərinə baxılırdı. Ərizələr oxunur, hərəyə bir ay, yarım ay ezamiyyət verilirdi ki, gedib həyatı öyrənsinlər və sonra qayıdıb əsər yazsınlar. İclasın şirin yerində kimsə ayağa qalxdı:

-Yoldaşlar, təklif edirəm, Hüseynə də bir aylıq ezamiyyət verilsin.

-Haraya?

-Evinə

***

Bir dəfə Mirzə İbrahimovla Qazağa getmişdik. Çiskinli payız günü idi. Hardansa Hüseyn də peyda oldu. Elə görüşən kimi sözə başladı:

-Göyçədən gəlirəm. Aşıq Alının qəbrini axtarırdım.

Tapdım. Böyük sənətkardır.

-Kimlə getmişdin?

-Tək. Arif balam maşın sürürdü, mən də ki, oturmuşdum yanında.

Birdən yadıma düşdü ki, Hüseyn təzə maşın alıb. O zaman "Jiquli"lər yenicə çıxmışdı.Soruşdum:

-Ay Hüseyn, bu "Jiquli"lər necə maşındı?

-Maşın deyil, ceyrandı. Süzəndə dalından çatmaq olmur.

Aradan xeyli keçdi. İclas oldu, sonra nahar elədik. Hüseyn adəti üzrə bir-iki qədəh də ötürdü, kefi lap düzəldi.

Mən təkrar soruşdum:

-Ay Hüseyn, yəni deyirsən, “Jiquli” yaxşı maşındır?

-Yox, əşşi, tısbağadır. Mən torpaq adamıyam. Ayağım həmişə torpaqda olmalıdır. Bu isə asfaltdan çıxan kimi tısbağaya dönür, bekar şeydi.

***

Bir gün Hüseyn Arifə deyirlər ki, şair, deyəsən səndə də yerlibazlıq var. Dərhal təşvişlə cavab verir:

-Qətiyyən. Mən yerlibazlığın nə olduğunu bilmirəm. Elə tovuzduları da özümünkü hesab edirəm.

***

Bir gün Mirzə İbrahimov Hüseynə zəng vurur.

-Hüseyn, bu gün Yazıçılar İttifaqında partiya iclası var. Sənin iştirakın vacibdir. Təcili gəl.

-Baş üstə, Mirzə müəllim, siz iclasınızı keçirin, mən sabah gələrəm.

***

Bir dəfə Şəmşad Rza Hüseynin yanına, Aşıqlar Birliyinə gəlir.

-Qağa, məni də yanında işə götür.

-Nə işinə?

-Nə bilim, qağa, yanında folklor şöbəsi var, götürsən işlərəm.

-Hə, düzdü, şöbə var, amma mənə kişi lazım deyil.

***

Zəlimxan Yaqub Hüseyn Arifin şeir kitabını redaktə edirmiş. Görür ki, şairin şeirlərinin içində onun öz şeirləri də var. Telefonu götürüb zəng edir.

-Ustad, sənin şeirlərinin içində mənim də şeirlərim var.

Deyəsən, qarışıq salıbsan, onları çıxartmaq istəyirəm.

-Yox, yox, dəymə. Sənin, ya mənim, nə fərqi var, öz şeirlərimizdi, qoy çap olunsun.